**"İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

I. (Çıxarılıb) [1]

II. (Qüvvədən düşüb) [2]

III. Azərbaycan Respublikasının 1964-cü il 11 sentyabr tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Mülki Məcəlləsinə (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1964-cü il, № 15-16, maddə 156, № 21, maddə 215; 1966-cı il, № 24, maddə 230, 235; 1969-cu il, № 10, maddə 75; 1970-ci il, № 17, maddə 138; 1973-cü il, № 2, maddə 13; 1974-cü il, № 5, maddə 28, № 11, maddə 74-75; 1975-ci il, № 3-4, maddə 17; 1976-cı il, № 1-2, maddə 8, 1982-ci il, № 1-2, maddə 4; 1985-ci il, № 4, maddə 40, № 21, maddə 204; 1986-cı il, № 12, maddə 72, № 21-22, maddə 159; 1987-ci il, № 15-16, maddə 156, ; 17, maddə 169; 1990-cı il, № 13-14, maddə 174; 1992-ci il, № 16, maddə 685, № 21, maddə 920; 1993-cü il, № 23-24, maddə 673; 1995-ci il, № 8, maddə 157, № 22, maddə 358; "Azərbaycan Respublikasının Qanunları" 1996-cı il, № 1; "Azərbaycan qəzeti" 1 mart 1997-ci il, Azərbaycan Respublikasının Qanunu 25 aprel 1997-ci il, № 285-IQD; "Azərbaycan qəzeti" 23 aprel 1999-cu il, Azərbaycan Respublikasının Qanunu 2 aprel 1999-cu il, № 648-IQD; "Azərbaycan qəzeti" 7 may 1999-cu il, Azərbaycan Respublikasının Qanunun 2 aprel 1999-cu il, № 651-IQD) 363-cü maddəsinin birinci hissəsinə "təsdiq edilmiş layihə smeta sənədlərini" sözlərindən sonra "və qanunvericiliklə nəzərdə tutulmuş digər sənədləri" sözləri əlavə edilsin.

IV. (Qüvvədən düşüb) [3]

V. Azərbaycan Respublikasının 26 dekabr 1997-ci il tarixli 418-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikası Su Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, № 3, maddə 135) 84-cü maddəsinin birinci hissəsinə aşağıdakı məzmunda altıncı abzas əlavə edilsin:

"yeraltı suların, təsərrüfat və içməli sututarlarının olduğu ərazilərdə istehsalat və məişət tullantılarının basdırılması".

VI. Azərbaycan Respublikasının 30 dekabr 1997-ci il tarixli 424-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikası Meşə Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, № 3, maddə 139) 59-cu maddəsinə aşağıdakı məzmunda üçüncü hissə əlavə edilsin:

"Meşə zonalarında istehsalat və məişət tullantılarının basdırılması qadağandır";

üçüncü hissə müvafiq olaraq dördüncü hissə hesab edilsin.

VII. "Yerin təki haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il № 4, maddə 224) 21-ci maddəsinin birinci hissəsinin onuncu abzasına "qarşısının alınması" sözlərindən sonra "faydalı qazıntılar olan və ya dağ-mədən işləri aparılan zonalarda istehsalat və məişət tullantılarının basdırılmaması" sözləri əlavə edilsin.

VIII. Bu Qanun dərc olunduğu gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 22 iyun 1999-cu il
№ 692-IQD

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 30 dekabr 1999-cu il tarixli 787-IQ nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, № 4, maddə 251**)
2. 11 iyul 2000-ci il tarixli 906-IQ nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, № 8, maddə 584**)
3. 14 iyul 2000-ci il tarixli 907-IQ nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, № 8, maddə 585**)

## QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 30 dekabr 1999-cu il tarixli 787-IQ nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, № 4, maddə 251**) ilə I hissə 2000-ci il iyunun 1-dən ləğv edilmişdir. Əvvəlki redaksiyada deyilirdi:

~~I. Azərbaycan Respublikasının 1960-cı il 8 dekabr tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1960-cı il, № 29, maddə 143; 1961-ci il, № 9, maddə 37, № 13, maddə 52, № 16, maddə 60, № 21, maddə 78; 1962-ci il, № 10, maddə 6, № 7, maddələr 30, 32, № 22, maddə 115; 1963-cü il, № 13, maddə 201; 1964-cü il, № 14, maddə 72; 1965-ci il, № 7, maddə 57, № 27, maddə 145; 1966-cı il, № 3, maddə 18, № 8, maddə 59, № 16, maddə 135, № 18, maddə 166, 1967-ci il, № 12, maddə 144, № 17, maddə 185, № 18, maddə 192, № 19, maddə 207, № 20, maddə 214; 1968-ci il, № 14, maddə 113; 1969-cu il, № 2, maddə 15, № 11, maddə 95, № 22, maddə 173; 1970-ci il, № 2, maddə 13, № 6, maddə 40; 1971-ci il, № 22, maddə 177; 1972-ci il, № 7-8, maddə 21, № 12, maddə 52, № 15-16, maddə 94; 1973-cü il, № 7, maddə 62, № 10, maddə 90, № 13, maddə 116, № 23, maddə 198; 1975-ci il, № 7, maddə 48, № 16, maddə 138; 1977-ci il, № 1-2, maddə 3, № 5-6, maddə 29, № 8, maddə 49; 1978-ci il, № 13, maddə 127; 1979-cu il, № 4, maddə 23; 1980-ci il, № 10, maddə 125, № 11-12, maddə 136, № 15, maddə 170, № 18, maddə 187; 1981-ci il, № 8, maddə 113, № 18, maddə 207, № 20, maddə 225; 1982-ci il, № 1-2, maddə 1, № 18, maddə 161, № 21, maddə 203, № 24, maddə 292; 1983-cü il, № 17-18, maddə 162, № 21, maddə 194; 1984-cü il, № 3-4, maddələr 29, 30, № 7, maddə 55, № 11-12, maddə 111; 1985-ci il, № 3, maddə 29, № 10, maddə 118, № 11, maddə 130, № 13-14, maddə 151, № 21, maddə 204, № 22, maddə 216; 1986-cı il, № 11, maddə 58, № 12, maddə 72, № 15-16, maddə 123; 1987-ci il, № 12, maddə 118, № 14, maddə 141, № 15-16, maddələr 153, 57, № 18, maddə 173, № 21, maddə 211; 1988-ci il, № 4, maddə 26, № 5-6, maddələr 29, 35, № 8, maddə 58, № 13-14, maddə 136, № 16, maddə 150; 1989-cu il, № 7-8, maddə 47, № 15-16, maddə 118; 1990-cı il, № 8, maddələr 53, 55, № 12, maddə 147; 1991-ci il, № 12-13, maddə 203; 1992-ci il, № 1, maddə 3, № 5, maddə 100, № 7, maddə 167, № 11, maddə 412, № 21, maddə 923; 1993-cü il, № 2, maddə 64, № 9, maddə 226, № 10, maddə 300, № 23-24, maddə 673; 1995-ci il, № 10, maddə 192, № 22, maddə 357; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997-ci il, № 2, maddə 116, № 4, maddələr 284, 287, 301, 303, 305, № 5, maddə 378, № 6, maddə 457, 1998-ci il, № 1, maddə 10, № 2, maddə 35, № 5, maddələr 306, 307, № 8, maddə 488; 1998-ci il, 24 noyabr tarixli 542-IQD saylı Azərbaycan Respublikasının Qanunu; 1999-cu il, 30 mart tarixli 645-IQD saylı Azərbaycan Respublikasının Qanunu; "Azərbaycan qəzeti" 7 may 1999-cu il, Azərbaycan Respublikasının~~

Qanunu 20 aprel 1999-cu il, № 660-IQD; "Azərbaycan qəzeti" 12 iyun 1999-cu il, Azərbaycan Respublikasının Qanunu 2 aprel 1999-cu il, № 650-IQD) aşağıdakı məzmunda 160-3-cü maddə əlavə edilsin:

" M a d d ə 1 6 0 - 3 . **Təhlükəli tullantıların emalı sahəsində qayda və tələbləri pozma"**

Təhlükəli tullantıların emalı, yəni onların toplanması, saxlanılması, çeşidlənməsi, daşınması və zərərsizləşdirilməsi zamanı müəyyən olunmuş qayda və tələbləri pozma ehtiyatsızlıq üzündən insan tələfatına və ya digər ağır nəticələri səbəb olarsa –

bir ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır".

[2] 14 iyul 2000-ci il tarixli 907-IQ nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, № 8, maddə 585**) ilə II hissə 2000-ci il sentyabrın 1-dən qüvvədən düşmüş hesab edilmişdir. Əvvəlki redaksiyada deyilirdi:

II. Azərbaycan Respublikasının 1960-cı il 8 dekabr tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinə (Azərbaycan Respublikası Ali sovetinin məlumatı, 1960-cı il, № 29, maddə 144; 1979-cu il, № 9-10, maddə 72; 1980-ci il, № 11-12, maddə 137; 1983-cü il, № 17-18, maddə 165; 1987-ci il, № 21, maddə 201; 1988-ci il, № 4, maddə 26, № 13-14, maddə 136, № 16, maddə 153; 1990-cı il, № 3-4, maddə 19, № 12, maddə 145; 1992-ci il, № 16, maddə 688; 1993-cü il, № 23-24, maddə 673; 1995-ci il, № 10, maddə 192, № 22, maddə 357; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997-ci il, № 4, maddələr 284, 285, 301, 303, 305; 1998-ci il, № 1, maddə 10, № 2, maddə 85, № 5, maddə 306; "Azərbaycan qəzeti" 12 iyun 1999-cu il, Azərbaycan Respublikasının Qanunu 2 aprel 1999-cu il, № 650-IQD) 127-ci maddəsinin üçüncü hissəsində "160-1" rəqəmindən sonra "160-3" rəqəmi ilə əlavə edilsin.

[3] 11 iyul 2000-ci il tarixli 906-IQ nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, № 8, maddə 584**) ilə IV hissə 2000-ci il sentyabrın 1-dən qüvvədən düşmüş hesab edilmişdir. Əvvəlki redaksiyada deyilirdi:

IV. İnzibati hüquqpozmalar haqqında Azərbaycan Respublikasının Məcəlləsinə (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1984-cü il, № 23, maddə 198; 1985-ci il, № 3, maddə 33, № 9, maddə 112, № 11, maddə 130, № 21, maddə 204; 1986-ci il, № 6-7, maddə 24, № 12, maddə 72; 1987-ci il, № 1-2, maddə 6, № 6, maddə 48, № 12, maddə 118, ; 15-16, maddə 153, № 21, maddə 215, № 24, maddə 250; 1988-ci il, № 1, maddə 1, № 5-6, maddə 35, № 8, maddə 58, № 10, maddə 79, № 15, maddə 139, № 16, maddə 150, № 18-19, maddə 173, № 22-23, maddə 220; 1989-ci il , № 4, maddə 27, № 9, maddə 69, № 13-14, maddə 107; 1990-ci il, № 8, maddələr 53, 55, № 12, maddə 185; 1991-ci il, № 12-13, maddə 203, № 14, maddə 236; 1992-ci il, № 16, maddə 687, № 18, maddələr 828, 829, № 21, maddə 922; 1993-cü il, ; 6, maddə 158, № 15, maddə 423; 1994-cü il, № 9, maddə 97; 1995-ci il, № 7, maddə 135, № 22, maddələr 348, 357; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997-ci il, № 2, maddə 142, № 3, maddə 142, № 3, maddə 2020, № 4, maddələr 287, 296, 301, 303, № 5, maddələr 388, 394, 419, 420, № 6, maddə 457; 1998-ci il, № 1, maddə 9, № 2, maddə 60, № 5, maddələr 305, 306, № 6, maddə 367, № 8, maddə 488; 1998-ci il 24 noyabr tarixli, 542-IQD saylı Azərbaycan Respublikasının Qanunu; "Azərbaycan qəzeti" 23 aprel 1999-cu il, 30 mart 1999-cu il, 636-IQD, 637-IQD, 639-IQD, 642-IQD, 645-IQD, 647-IQD saylı Azərbaycan Respublikasının Qanunları; "Azərbaycan qəzeti" 7 may 1999-cu il, Azərbaycan Respublikasının Qanunu 2 aprel 1999-cu il, № 651-IQD) aşağıdakı dəyişikliklər və əlavələr edilsin:

1. Məcəlləyə aşağıdakı məzmunda 85-1 və 233-9-cu maddələr əlavə edilsin:

" M a d d ə 8 5 - 1 . **İstehsalat və məişət tullantıları haqqında qanunvericiliyin tələblərinin pozulması**

İstehsalat və məişət tullantılarının emalı məqsədilə nəzərdə tutulmayan yerlərdə tullantıların yerləşdirilməsi və emalına;

şəhərlərin və digər yaşayış məntəqələrinin ərazisində kurort, müalicə-sağlamlıq, meşə və rekreasiya zonalarında yeraltı suların, təsərrüfat və içməli sututarlarının olduğu ərazilərdə, eləcə də faydalı qazıntılar olan və ya dağ-mədən işləri aparılan zonalarda tullantıların basdırılmasına;

məişət tullantılarının zərərsizləşdirmək məqsədilə müəyyən olunmayan yerlərdə atılmasına, saxlanılmasına və basdırılmasına;

təhlükəsiz emalı mümkün olmayan, habelə tranzit daşınmaq, basdırılmaq və zərərsizləşdirmək məqsədilə bu tullantıların Azərbaycan Respublikasına gətirilməsinə;

tullantıların daşınması (tullantıların nəqliyyat vasitəsinə yükləndiyi andan müvafiq ünvana çatdırılana qədər) ilə əlaqədar ətraf mühitin və insanların sağlamlığının təhlükəsizliyinin pozulmasına görə –

vətəndaşlar minimum əmək haqqı məbləğinin on mislindən otuz mislinədək miqdarda, vəzifəli şəxslər minimum əmək haqı məbləğinin əlli mislindən səksən mislinədək miqdarda cərimə olunur".

" M a d d ə 2 3 3 - 9 . **İstehsalat və məişət tullantıları ilə bağlı fəaliyyətə dövlət nəzarətini həyata keçirən orqan**

İstehsalat və məişət tullantıları ilə bağlı fəaliyyətə dövlət nəzarətini həyata keçirən müvafiq icra hakimiyyəti orqanı bu Məcəllənin 85-ci (sanitariya-gigiyena qaydalarının pozulması hallarından başqa) və 85-1-ci maddəsində nəzərdə tutulmuş inzibati hüquqpozmalar haqqında işlərə öz səlahiyyəti daxilində baxır".

2. 208-ci maddənin birinci və ikinci hissəsində 8-85-ci maddələrində" sözləri 80-84-cü maddələrində" sözləri ilə əvəz olunsun.